# AZOFİS

# ARAKƏSMƏLƏR

# ARAKƏSMƏLƏR

**Biz ictimai yerlərin quruluşundairəli sürülən tələbləri anlayırıq.**

İş yerinizdəki interyerin insanın emosional mühitinə necə təsir etməsi barədə düşünmüsünüzmü? Ofis arakəsmələri vasitəsilə rəhbər üçün qəbul otağı, menecerlər üçün kabinetlər və ya şirkətin nüfuzu naminə fəaliyyət göstərəcək konfrans zalların yaradılması barədə düşünmüsünüzmü? Şəffaf, işıqlı konstruksiyalardan və ofis arakəsmə sistemlərindən effektiv şəkildə necə istifadə etmək olar? Bu cür suallara cavab tapmaq üçün şirkətimiz hər zaman sizə yaxın olacaq. . Biz sizin üçün işləyərək ofis arakəsmələrinin, qapılarının və şəffaf işıqlı konstruksiyaların istehsalı və quraşdırılması sahəsində yüzlərlə müxtəlif yüksək səviyyəli layihələri uğurla yerinə yetirmişik və təcrübəmizi sizinlə paylaşmağa daim hazırıq.

**Biz sizə müfəssəl sərbəstlik təqdim edirik!**

İstənilən kommersiya məkanında əsas səciyyəvi xüsusiyyətlər imic və abu-havadır. Şüşə və aliminiumdan hazırlanmış ofis arakəsmələri və şəffaf işıqlı konstruksiyalar istənilən kommersiya yerinin qurulmasında böyük əhəmiyyət kəsb edir. Dizaynın köməyi ilə bu yerləri müştərilərin davamlı şəkildə ziyarət etdikləri və təkrarən qayıtdıqları məkana çevirmək lazımdır. Məkanın müxtəlif zonalara ayrılması, vitrin tərtibatı, düzgün işıqlandırma, eləcə də ticarət və ya ofis otağının dizaynın vacib elementləridir. Onlar cəm şəklində bu otaqları xüsusi şəkilə salan abu-hava yaradırlar. Lakin dizayn layihələrinin işlənib hazırlanması adi və gözlənilən nəticələrlə tamamlanmalı deyil. Yaradıcı imkanlarınızı kəşf etmək, alıcılara xoş təəssüratlar bağışlamaq və nüfuslu abu-hava yaratmaq üçün sizə həqiqi sərbəstlik lazımdır. Buna görə də, arakəsmələr və şəffaf işıqlı konstruksiyalar kimi vacib olan ofis sistemləri vasitəsilə ətrafdakılara müəyyən yaradıcı ideyanı çatdırmaq olduqca asandır.

Bizim mütəxəssislərimiz yaxşı bilirlər ki,ofis arakəsmələrinin, qapılarının və müxtəlif işıqlı konstruksiyalarının nəinki vizual, eləcə də, funksional rolu yerinə yetirməsi olduqca vacibdir. Biz müxtəlif məqsədlər və təyinatlar üçün xüsusi arakəsmələr sistemini işləyib hazırlamışıq. Bizim sistemlər növlərdən ibarətdir:

- Avanqard
- Eleqant
- Klassik
- Standart





## Ofis Arakəsmələri



# ARAKƏSMƏLƏR



# ARAKƏSMƏLƏR

Ofis arakəsmələrinin və şəffaf işıqlı, şüşə konstruksiyaların yüksək istismar xarakteristikaları və müasir vizual görünüşü istənilən interyerdə ideal uzlaşmadır.

Biz əsas vurğunu konstruksiyalarımızın unikallığı, gözəlliyi və etibarlılığı, həmçinin yaradıcı potensialınızın açıqlanmasına yardım edən hər bir məqamın üzərində qurmuşuq. İndi siz bilirsiniz ki, qarşınızda hansı məqsədin dayanmasından asılı olmayaraq ofisinizi və ya digər obyekti tərtib edərkən təklif etdiyimiz məhsul sizə əsl ruh yüksəkliyi bəxş edərək heç kimi laqeyd qoymayacaq interyer yaratmağa icazə verəcəkdir

**Sizinlə birlikdə dünyanı daha maraqlı və parlaq etməyə can atırıq!**

**Aliminium profillər əsasında qurulan ofis arakəsmələri.**

Arakəsmələrin bu cür sistemi səs- küyü mənimsəmə effektivliyi sayəsində (49 dB qədər) tikinti daxilində istənilən divarı effektiv şəkildə əvəz edə bilər. Otaqların təkrarən daha müasir şəkildə planlaşdırılması zamanı rəhbər tutulan estetik keyfiyyətlər və digər xüsusiyyətlər nəzərə alınmaqla daxili divarlar və inşaat arakəsmələrinin yeniləri ilə əvəz olunmasında bu sistem qədər unikal həll ola bilməz.

Aluminium profillər şəffaf, boğuq və ya birləşmiş tipli arakəsmələri yaratmağa imkan verən bir şəkildə işlənib hazırlanmışdır. Arakəsmələrin şəffaf növündə qalınlığı 4 - 10 mm təşkil edən temperli və laminasiyalı şüşələrdən istifadə olunur. Bu zaman birqat və ya ikiqat şüşəli arakəsmələrdən istifadə olunur. Kabinetlərin vizual qaydada ayrılması üçün isə idarə olunan jalüzləri quraşdırmaq və ya müxtəlif rəngli və növlü laminant panellərndənistifadə edilir. Arakəsmələrin boğuq növündə laminasiyalı ağac-yonqarlı panellər, gipsdən hazırlanmış vinil, aluminiumlu və plastikli sendviç-panellər istifadə olunaraq arakəsmənin daxilində ən yaxşı səs izolyasiyası üçün səs-küyü udan xüsusi material salınır. Şəffaf və boğuq doldurucular arakəsmələrin birləşmiş növündə uzlaşaraq müxtəlif dizayn qərarlarını yerinə yetirməyə icazə verir.
İşlərin (montajın) yerinə yetirilməsi qaydası: obyektə eyni uzunluğa malik aluminium profillər gətirilir, daha sonra yerindəcə onlardan karkas yığılır və arakəsmədə doldurucunun ölçülməsi həyata keçirilir. Doldurucu istehsalat sexində hazırlanaraq obyektə çatdırılır və burada arakəsmədə quraşdırılır. Bundan sonra doldurucu dekorativ elementlər ilə bərkidilir. Bu isə arakəsmələrin ofis sisteminə konstruksiyaların funksionallığı ilə yanaşı dizayna xüsusigözəllik bəxş edir.

**Aluminium profillərin rəngi RAL rənglər şkalasına əsasən təyin edilir.**

Dolu arakəsmələrin daha bir növü də istifadə olunur ki, o qiymətli ağac növlərinin birqatlı fanerindən ibarət asma taxta panel şəklində olur. Bu növün fərqli cəhəti ondan ibarətdir ki, bu arakəsmənin daxilində güclü karkas gizlədilmişdir. Əvvəlcə karkas aliminium profillərdən qurulur, daha sonra isə xüsusi montajlı elementlərdən ibarət olan panellər aliminium karkasa asılır.

Sürətlə sökülə bilən panellər dizayn üstünlüklərindən savayı, ofis arakəsmələrinin istismar imkanlarını genişləndirməklə yanaşı daxildə gizlədilmiş elektrik naqillərinə operativ müdaxiləni də təmin edir.

Hündürlüyü tavana çatan arakəsmələr ən yaxşı səs izolyasiyasını təmin edir.Hündürlüyü tavandan aşağı qurulan arakəsmələr isə təbii hava mübadiləsini qoruyub saxlamağa icazə verir.

.

## Ofis Arakəsmələri



# ARAKƏSMƏLƏR

## AVANQARD









# ARAKƏSMƏLƏR

## KLASSIK









# ARAKƏSMƏLƏR

## ELEQANT



# ARAKƏSMƏLƏR
## STANDART











www.alsagroup.az

www.alsagroup.az
Address: Azerbaijan, Baku, AZ0025.
15, Nobel ave. “Azure Business Centre”
9 floor. 47 Office
**Tel:** ***5577**
**Tel:** **(+99412) 409-55-77**
**Faks: (+99412) 488-66-70**
**GSM (+99450) 207-55-77**
E-mail: office@alsagroup.az